**Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə**
**Milli Əlaqələndirmə Şurasının birinci iclasının**

**PROTOKOLU № 1**

**Bakı şəhəri** **19 oktyabr 2016-cı il**

**İştirak edirdilər:**

**İclasın sədri:**
Əli Əhmədov - Azərbaycan Respublikasının Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri

Şahin Mustafayev - iqtisadiyyat naziri, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədr müavini

**İclas iştirakçıları (Şura üzvləri):**
Tahir Budaqov - Dövlət Statistika Komitəsinin sədri
Hicran Hüseynova - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri
Vaqif Əliyev - mədəniyyət və turizm nazirinin birinci müavini
Mahmud Məmməd-Quliyev - xarici işlər nazirinin müavini
Elsevər Ağayev - səhiyyə nazirinin müavini
İdris İsayev - əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Ceyhun Bayramov - təhsil nazirinin müavini
Rauf Hacıyev - ekologiya və təbii sərvətlər nazirinin müavini
İntiqam Babayev - gənclər və idman nazirinin müavini
Seyfəddin Talıbov - kənd təsərrüfatı nazirinin müavini
Toğrul Musayev - ədliyyə nazirinin müavini
Fuad Hüseynov - Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədr müavini
**Digər iştirakçılar:**
Sevinc Həsənova - iqtisadiyyat nazirinin müavini

**İclasın gündəliyi:**
1. Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2016-cı il tarixli 1066 nömrəli Fərmanı ilə yaradılmış Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının qarşısında duran vəzifələr:
   - Azərbaycan üçün əhəmiyyət kəsb edən və qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi;
   - Ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramları və strategiyalarının Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasının təmin edilməsi;
   - Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması ilə əlaqədar illik hesabatın hazırlanması və Azərbaycan Respublikası Prezidentinə təqdim edilməsi;
2. Şuranın fəaliyyətini həyata keçirmək üçün müvafiq qurumların nümayəndələrindən ibarət sahələr üzrə işçi qrupların yaradılması;

3. 2017-ci ilin iyul ayında nəzərdə tutulmuş Yüksək Səviyyəli Siyasi Forumu (HLPF) üçün Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycanının ilkin hesabatının təqdim edilməsi işinin təşkili;
4. Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinin yaradılması;
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən Dayanıqlı İnkişaf Məqsədlərinə müvafiq statistik məlumatların işlənilməsi və onların ildə bir dəfə Şuraya təqdim olunması.

Milli Əlaqələndirmə Şurasının 1-ci iclasında aşağıdakı məsələlər üzrə **qərarlar qəbul edildi:**

1. Azərbaycan Respublikasının Prezidentinin 6 oktyabr 2016-cı il tarixli 1066 nömrəli Fərmanın icrasının təmin edilməsi məqsədi ilə İqtisadiyyat Nazirliyi katibliyin yaradılmasına dair Maliyyə Nazirliyi və digər aidiyyəti qurumlarla razılaşdırılmış təklifləri qısa müddət ərzində Nazirlər Kabinetinə təqdim etsin;
2. Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi məqsədilə sahə işçi qruplarının tərkibi formalaşdırılsın;
3. Qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyalarının Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılması məqsədi ilə BMT tərəfindən hazırlanmış matrislər aidiyyəti dövlət qurumlarına göndərilsin.

**İclasın sədri,**
**Baş nazirin müavini** **Əli Əhmədov**

**İclasın katibi** **Hüseyn Hüseynov**